BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Sosial-siyasi elmlər seriyası* 2006

# PSİXOLOGİYA

## M.F.AXUNDOV YARADICILIĞINDA İNSAN XARAKTERİ VƏ ONUN SƏCİYYƏSİ

**M.V.VƏLİYEV**
***Bakı Dövlət Universiteti***

*Məqalədə Azərbaycanın görkəmli mütəfəkkiri, böyük dramaturqu M.F.Axundovun bədii yaradıcılığının psixoloji təhlili nəzərdən keçirilmişdir. Müəllif böyük sənətkarın dünyagörüşünü izah etmiş, bu dünyagörüşün bəhrəsi olan «Hacı Qara» komediyasındakı Hacı Qara və bəy obrazları vasitəsilə insan xarakterinin müsbət və mənfi əlamətlərinin psixoloji təhlilini aparmışdır.*

Qüdrətli mütəfəkkir, böyük söz ustası, görkəmli filosof Mirzə Fətəli Axundov nəinki milli mədəniyyətimizin, ədəbiyyat və incəsənətimizin, o cümlədən bir çox elm sahələrinin, xüsusilə fəlsəfə, etika, pedaqogika və psixologiya elminin inkişafında da əvəzsiz xidmətlər göstərmişdir.

Azərbaycanın dilbər guşələrindən olan Şəki şəhərində dünyaya göz açan Mirzə Fətəli Axundov əzablı, acınacaqlı, eyni zamanda şərəfli bir həyat yaşamışdır. Gələcəyin böyük dramaturqu, sərraf söz ustası dini-fanatizmin qəti əleyhdarı 20 yaşına qədər fərəhsiz, mənasız həyat yaşayıb, dini-sxolastik elmlərlə məşğul olduqdan sonra, nəhayət, 1832-ci ildən etibarən həqiqi, düzgün inkişaf yoluna düşmüşdür. Zəkalı gəncin dünyagörüşünün aydınlaşmasında, materialist istiqamətdə formalaşmasında, fanatizm və dindarlığa qarşı barışmaz bir mübariz kimi böyüməsində Azərbaycanın məşhur şairi Mirzə Şəfi Vazehin mühüm rolu olmuşdur.

Mirzə Fətəli 1834-cü ilin payızında dövlət qulluğuna işə düzəlmək məqsədilə Tiflis şəhərinə gedir. Tiflis şəhəri o zamanlar Qafqazın əsrarəngiz gözəlliyə malik şəhərlərindən biri olmaqla yanaşı, həm də dövlət idarələrinin yerləşdiyi mədəniyyət mərkəzlərindən biri idi. M.F.Axundov burada Baş Qafqaz idarəsi mülki şöbəsi müdirinin dəftərxanasında Şərq dilləri tərcüməçisi vəzifəsinə qəbul olunur.

Rusiyada 1825-ci il dekabristlər üsyanından sonra Qafqaza sürgün edilmiş bir çox görkəmli rus ziyalıları, xüsusilə alovlu dekabrist A.Bestujev-Marlinski, şair A.Odoyevski, P.Polinski, gürcü dramaturgiyasının banisi G.Eristavi və başqaları Tiflisdə yaşayırdılar. O, burada əsaslı surətdə rus dilini, bu dil vasitəsilə rus və Avropa mədəniyyətini öyrənir. Qeyd olunan görkəmli şəxsiyyətlərlə rus dili vasitəsilə ünsiyyətə girir, onlarla dostluq edir, bu amil də gənc Mirzə Fətəlinin elmi dünyagörüşünün formalaşmasına ciddi təsir göstərir. M.F.Axundov şəxsiyyətində demokratik dünyagörüşün formalaşmasında rus inqilabçı-demokratları-

nın əsərlərinin mütaliəsinin də az təsiri olmamışdır. Əbəs yerə deyildir ki, M.F.Axundov gələcək elmi və bədii əsərlərində insan azadlığı, haqq və ədalət uğrunda mübarizə aparmağı bu əsərlərdən aldığı təəssüratlar əsasında təbliğ edirdi.

M.F.Axundovun fəlsəfi əsərlərində, elmi fikirlərinin şərhində Qərbi Avropa fəlsəfəsinə, görkəmli filosofların fikirlərinə təkrar-təkrar müraciət etməsi onun bu məsələlərlə yaxından tanışlığını sübut edir.

M.F.Axundovun elmi-bədii yaradıcılığını təhlil edərkən məlum olur ki, o, materialist alim, görkəmli ideoloq idi. M.Fətəli gecə-gündüz yorulmaq bilmədən işləyirdi. Azərbaycanın elm və mədəniyyətinin inkişafına çalışırdı. O, yazırdı: «Mən xalq fərdlərindən bir nəfərəm ki, əlim qələm, davat və xəyaldan başqa heç bir şeyə çatmır». Təvazökarlıqla deyilmiş bu sözlərin sahibi xalqının maariflənməsi üçün daima axtarışda və çalışmaqda idi.

M.F.Axundovun materialist dünyagörüşü təbiət və cəmiyyət hadisələri haqqındakı fikirlərində daha aydın ifadə olunur. O, yazırdı ki, kainat vahid, qadir, kamil və hər şeyi əhatə edən bir varlıqdır, o özözünə öz qanunları və şərtləri əsasında, başqa bir xarici varlığa ehtiyac hiss etmədən mövcuddur və saysız-hesabsız növ və şəkillərdə zühur etmişdir.

Göründüyü kimi, M.F.Axundovun materialist mövqeyi idrak, dərketmə probleminə münasibəti aydın ifadə olunur. Klassik və müasir psixologiya elminin dərketmə probleminə dair mövqeyi ilə M.F.Axundovun mövqeyi üst-üstə düşür. M.F.Axundova görə, idrak xarici aləmin insan şüurundakı inikasından ibarətdir. Böyük materialist idrakı fəaliyyətdə hissi idrakın roluna yüksək qiymət verərək məntiqi idraka keçmək üçün onu xüsusi mərhələ hesab edirdi. O, israrla yazırdı: «Gözlə görünməyən, duyulmayan və hiss edilməyən bir şey mövcud deyildir».

Qeyd etdiyimiz kimi, M.F.Axundovun dünyagörüşü çoxşaxəlidir. Böyük sənətkar əsərlərində, xüsusilə 1857-ci ildə yazdığı «Aldanmış kəvakib» əsərində dövlət idarəçiliyi məsələsinə diqqətimizi yönəldir. Müəllif Azərbaycan ədəbiyyatı tarixində ilk nəsr əsəri olan məlum povestində bütün feodal-mütləqiyyət üsul-idarəsinin inzibati maliyyə, məhkəmə və tərbiyə sistemini təfsilatı ilə satira atəşinə tutur. M.F.Axundovun fikrincə, feodal-mütləqiyyət üsul-idarəsi bütün ictimai bəlaların – zülmün, özbaşınalığın və ədalətsizliyin mənbəyidir. Görkəmli alim, ictimai xadim, xalqının dərdini çəkən böyük insan xalqın bu bəladan xilas olmasının da yolunu göstərir. Onun fikrincə, bu sülh yolu ilə dövlət hakimiyyətinin yenidən qurulması və idarəçilik formalarının təkmilləşdirilməsi yolu ilə baş verə bilər.

Uzaqgörən sənətkar Yusif Sərrac surəti vasitəsilə hakimiyyət başına gəlmiş adamın şəxsi keyfiyyətlərinin, onun idrak səviyyəsinin, ağıl və xarakterinin və təşkilatçılıq qabiliyyətinin həlledici rolunu xüsusilə qeyd edirdi. Yeri gəlmişkən qeyd etməliyik ki, böyük sənətkar nəinki bədii əsərlərində obrazların xarakterik xüsusiyyətlərini şərh edir, o, eyni zamanda «Aldanmış kəvakib» əsərində diqqətimizi bu günümüz üçün daha aktual olan idarəetmə psixologiyası məsələsinə də istiqamətləndirir.

M.F.Axundov «Aldanmış kəvakib» povestində yaradıcı təxəyyülün imkanlarından məharətlə istifadə etmişdir. Müəllif münəccimbaşı Mirzə Sədrəddin obrazı vasitəsilə belə fikir söyləyir ki, Mərrux və Əqrəb ulduzları toqquşacaq, fələkət baş verəcək, şahlıq taxtı dağılacaqdır. Ona

görə də Şah Abbas hakimiyyətdən getməli, hökmdarlıq yazıq, kimsəsiz bir adama tapşırılmalıdır. Şah Abbas münəccimbaşının novruzdan on beş gün keçmiş onu gözləyən təhlükə haqqında xəbərdarlığından qorxaraq, müvəqqəti olaraq hakimiyyətdən əl çəkir.

Mollabaşı Axund Səmədin, vəzir Mirzə Möhsünün, sərdar Zaman xanın məsləhəti ilə «günahkar şəxs» kimi pinəçi Yusif Sərracı seçirlər. Yusif əzablı həyat yolu keçmişdir. Belə ki, Yusifin atası Allahdan qorxan idi. O, öz oğlunu ruhani etmək istəyirdi və ona dini təhsil vermişdi. Yusif bir çox illər ərzində dini elmləri öyrənmiş, ruhanilərlə yaxınlıq etmişdir. Lakin ruhanilərin ikiüzlülüyünü, riyakarlığını görən Yusif rahat olmaq istəməmiş və ruhaniliyə nifrət etmişdir».[1]

Yusif Sərrac yenilik, novatorluq tərəfdarıdır. O, şah taxtına oturan kimi əmr verir ki, hər yerdə yollar təmir olunsun, körpülər və karvansaralar tikilsin. Məmləkətin hər vilayətində səfəxanalar, mədrəsələr açılsın, dullara, yetimlərə, kor və şillərə ianə verilsin. «....Yusif belə hesab edirdi ki, kəndxudadan başlamış şaha qədər bütün vəzifəli şəxslər quldur, zalım və müstəbiddirlər, onlar ədalətin və vicdanın xilafına olaraq, öz tələbatları xatirinə xalqın üzərinə ağır vergi və mükəlləfiyyətlər qoyurlar. Yusif öz xalqının vəziyyətinin yaxşılaşdırılması və ölkənin abadlaşdırılması qeydinə qalmayan hökuməti pisləyirdi».[2]

Qeyd olunduğu kimi, sadə xalq içərisindən çıxmış namuslu və ağıllı Yusif Sərrac özünün qəddar və cahil sələfinin əksinə olaraq, o, xalqının rifah halının yaxşılaşmasına xidmət edən ictimai-iqtisadi islahatlar keçirir, şəhər və kəndləri abadlaşdırır, hamıya müvafiq vergi qoyur, ədalətli məhkəmə təsis edir, fiziki cəza tədbirlərini ləğv edir, bütün möhtəkirləri və fırıldaqçıları dövlət vəzifələrindən kənar edir. Bununla da, M.F.Axundov dövlət başçısının şəxsi qabiliyyətinin həlledici rol oynadığını xüsusilə qeyd edirdi. Deməli, M.F.Axundov yaradıcılığında ictimai-siyasi inkişaf məsələləri, xüsusilə feodal qaydalarının, zülmkar dövlət quruluşunun tənqidi, insan həyatına demokratik prinsiplərdən yanaşma tələbi və s. mühüm yer tutur.

M.F.Axundovun elmi və bədii yaradıcılığı öz doğma ana dilində yerinə yetirildiyindən o, müasir milli Azərbaycan ədəbi dilinin formalaşmasında da görkəmli xidmətlər göstərmişdir. M.F.Axundov yaradıcılığında bir ideya özünü qabarıq göstərir ki, insanın əxlaq və mənəviyyatını məqsədəuyğun surətdə dəyişdirmək, yeniləşdirmək, yalnız məqsədyönlü təlim-tərbiyədən asılıdır. M.F.Axundov dönə-dönə tələb etmişdir ki, hələ körpəlikdən adamları öz insanlıq şərəfini və ləyaqətini dərk etmək ruhunda tərbiyələndirmək vacibdir.

Böyük mütəfəkkir insanlarda qorxaqlığı, mütiliyi, yaltaqlığı və onu doğuran səbəbləri ifşa edir, əvəzində iradəlilik, öz şəxsiyyətinə, şərəfinə hörmət, azadlığı uğrunda mübarizə aparmağı zəruri hesab edirdi. O, fikirlərini əsaslandırmaq üçün İran məktəbləri nümunəsinə müraciət edərək yazırdı: «İran bu günə qədər anlamamış ki, uşaqların tərbiyəsində çubuq və sillə vurmaq onların əxlaqını pozar, təbiətlərini alçaldar, fitri cəhətlərini boğar, qorxaq və yalançı edər. İranda heç bir

---

[1]Bax: Məlikova M., Bayramov E. «Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi» (oçerklər). Bakı, 1984, səh.135.

[2]Yenə orada.

məktəb tapmazsan ki, onun səfeh məktəbdarının çubuq və fələqqəsi olmasın... Bu cür tərbiyədən sonra uşaqlardan böyüdükdə nə kimi insanlıq və mərifət, yüksək hümmət və nəcib əxlaq umud etmək olar».[3]

M.F.Axundov yaradıcılığı boyu milli tərbiyə məsələlərinə xüsusi diqqət göstərirdi. O, xalqının zülmdən, əzabdan qurtarmasını, firavan həyat yaşamasını, xalqın balalarının öz ana dilində təhsil almasını arzulayırdı. O, bu münasibətlə yazırdı: «... patriot ibarətdir o kimsədən ki, vətən təəssübü üçün və millətin və öz vətəninin və millətinin mənfəəti və azadiyyatı üçün saiq və cəfakeş ola. Bu halət və xasiyyət həmişə qeyrətmənd şəxslərə büruz edər».[4]

Görkəmli maarifpərvərin elmi və bədii əsərlərində bir çox psixoloji problemlərə diqqət yetirilir. Onun fəlsəfə və bədii irsində idrak fəaliyyətinin səviyyələri, insanın davranışında hissi idrakla yanaşı, məntiqi idrakın yeri, şəxsiyyət keyfiyyətlərinin təşəkkül xüsusiyyətləri, hissi-emosional iradi sferanın təzahürü, fərdi-psixoloji xüsusiyyətlərin səciyyəsi və s. məsələlər şərh olunur. Bizi M.F.Axundov bədii irsində daha çox səciyyələnən şəxsiyyətin fərdi xüsusiyyətlərindən olan xarakter və onun tipik xüsusiyyətlərinin hansı bədii ustalıqla səciyyələndirilməsi maraqlandırır.

Psixoloji ədəbiyyatlardan məlumdur ki, adamları, əsas etibarı ilə onların iş və fəaliyyətləri prosesində öyrənmək daha faydalıdır. Çünki şəxsiyyətin çox mühüm və mürəkkəb fərdi xüsusiyyətlərindən biri olan xarakter ictimai fəaliyyət prosesində təşəkkül etdiyi kimi, elə fəaliyyətdə də təzahür edir. Sanki bu deyilən fikirləri nəzərə alaraq böyük dramaturq M.F.Axundov bizim tədqiqat obyektimiz olan «Hacı Qara» komediyasındakı əsərin baş qəhrəmanı Hacı Qaranın tacirlik fəaliyyətini xarakterizə etməklə onun xarakterinin cizgilərini açıb göstərir. Mirzə Fətəli Axundov Hacı Qaranı qaçaq mal dalınca getməyə vadar edən motivlərin xarakterini ustalıqla təsvir edir.

Psixologiyadan bəllidir ki, adamın fəaliyyətinin motivlərini, həmin fəaliyyətə necə münasibət bəslədiyini, onu necə icra etdiyini də öyrənmək olduqca vacibdir. Görkəmli Azərbaycan psixoloqu M.C.Məhərrəmov yazır: «İnsanın öz qarşısına hansı məqsədlər qoyması, bu məqsədlərin ictimai-siyasi nöqteyi-nəzərdən nə dərəcədə əhəmiyyətli olması, onlara nail olmaq üçün zəruri olan iş və fəaliyyətin necə yerinə yetirilməsi şəxsiyyəti xarakterizə etmək üçün böyük əhəmiyyətə malikdir».[5]

M.F.Axundovun «Hacı Qara» komediyasında obrazların tipikliyi, dramatik konfliktlərin məharətlə işlənməsi diqqəti cəlb edir. Hacı Qara surəti ilə əlaqədar əhvalatlar fonunda o zamankı Azərbaycanın ictimai-siyasi həyatının bir sıra mühüm cəhətləri öz bədii həllini tapmışdır. Azərbaycanda ticarətin vəziyyəti, bəyliyin müflisləşməsi, kəndlilərin ağır həyatı, çar hökumətinin yerli hakimlərə münasibəti, məhkəmələrdəki süründürməçilik, M.F.Axundov tərəfindən ustalıqla satira atəşinə tutulur. Odur ki, Azərbaycanın mədəniyyət və ictimai həyatı tarixində görkəmli yer tutan M.F.Axundovun ədəbi fəaliyyətinin bir parçasını əhatə edən «Hacı Qara» adı ilə tanınmış «Sərgüzəşti-mərdi xəsis» komediyasındakı Hacı Qara obrazının psixoloji

---

[3] Bax: Axundov M.F. Seçilmiş əsərləri, III cild. Bakı. 1962, səh.60.
[4] Yenə orada.
[5] Bax: Məhərrəmov M.C. Psixologiya. Bakı, 1968, səh.319.

təhlili əsasında insan xarakterinin əlamətlərinin izah edilməsi aktuallıq kəsb edir.

Ədəbiyyat sahəsində aparılan tədqiqatlardan məlum olur ki, Azərbaycan ədəbiyyatında əsl realist satirik tiplər ilk dəfə Mirzə Fətəli Axundovun komediyalarında yaradılmışdır. Qeyd etdiyimiz kimi, biz bu tiplərdən psixoloji təhlil üçün daha dolğun və bitkin xəsis tipi Hacı Qaranı seçirik, çünki M.F.Axundovun yaradıcılıq üslubunun ümumi məsələlərini həll etmək, dramaturqun satira sənətkarlığını, psixoloq səriştəliliyini göstərmək üçün Hacı Qara ən optimal seçim variantıdır.

Komediyada təsvir olunan üç bəyin söhbətindən məlum olur ki, Hacı Qara Ağcabədinin varlı tacirlərindən biri olmaqla olduqca xəsisdir, həm də tamahkardır. Onun mala, dövlətə hərisliyindən istifadə edib qaçaq mal gətirmək üçün qorxulu, təhlükəli səfərə də aparmaq olar. Əsərlə ilk tanışlıq göstərir ki, Hacı Qara çit, bez, qədək, şilə ilə dolu dükanında əlində arşın əyləşib müştəri gözləyir. Hacı Qaranın dükanında şikayətlənməsi alverinin pis getdiyini göstərir. Hacı Qaranın necə deyərlər, gecəsi-gündüzü pul, mal yığmaqdır. Şüurunda yalnız mal satıb pul qazanmaq obrazını yaradır. Xəyalında yalnız müştəri surətini canlandırır. Hətta müəzzin Xudaverdi Hacı Qaranın atasının ruhuna oxuduğu surənin haqqını almaq üçün onun yanına gələrkən Hacı Qara elə bilir ki, müştəri gəlib ondan malın qiymətini soruşur. Nəticədə Xudaverdi xəsisdən istədiyi bir abası pulu ala bilmir. Hacı Qara Xudaverdiyə müraciətlə deyir: «Allahı sevirsən, dükanın qabağını kəsmə, müştəri gəlir». Xəsisin xarakterinin açılmasında bu epizod xüsusi olaraq diqqəti cəlb edir. Burada bir epizod da diqqəti cəlb edir. Bəylər dükanın qarşısına gələndə Hacı Qara dəyişilir, dil tökür, xüsusi nəvaziş göstərir, hörmətlə onları qarşılayır. Bu mənzərəni müşahidə edəndə, müqayisəli təhlil aparanda, adama elə gəlir ki, bu heç əvvəlki adam deyildir. Dramaturqun bədii ustalığı burada aydın nəzərə çarpır. Deməli, Hacı Qaranın xarakteri şəraitə uyğun dəyişilir. O, çevik tipdir.

Müəllif Hacı Qara surətinin xarakterində yeni əlamətlər üzə çıxarır. Belə ki, bəylər hal-əhval tutduqdan sonra bazarın alış-verişinin necə getdiyini soruşurlar. Hacı Qara bir dəqiqə əvvəl pislədiyi və şikayətləndiyi malları dərhal tərifləməyə başlayır və bəyləri inandırmaq üçün and içib deyir: «...Getdiyim Kəbeyi Beytullah haqqı, «Quran»a and olsun, peyğəmbər haqqı, oğlum Bədəlin toyunu görməyim, yalan deyirəmsə, tamam Ağcabədidə bundan yaxşı qədər və çit heç kimdə tapmazsınız! Bunların quması özgə qumaşdır. Müştəri macal vermir, göydə götürür!».[6]

Məlum olur ki, Hacı Qara dükanındakı malları satmaq, qazanc əldə etmək üçün peyğəmbərdən də, «Quran»dan da, öz doğma oğlundan da üz döndərməyə hazırdır.

Müəllif Hacı Qara surətində xarakterin yeni cizgilərini açıqlayır. Hacı gördükdə bəylər mal almırlar, onları buradan uzaqlaşdırmaq istəyir. Hətta bəylərdən biri yenə qəlyan çəkmək istədiyini bildirdikdə, oğlunun canına and içir ki, tənbəki yoxdur. Bunu belə gördükdə bəylərdən biri deyir ki, mən bilirəm ki, sən Ağcabədidə üç aydır üç top çit, qədəh satmayıbsan, dərya zərərin vardır. Biz gəlmişik ki, on beş günün içində sənə yüz manat xeyir yetirək, ancaq təəssüf ki, bəxtin işləmədi. Bu sözlərdən sonra Hacının bəylərə münasibəti dəyişir, onların

---

[6] Bax: Axundov M.F. Seçilmiş əsərləri. I c., 1987, səh.144.

qabağını кəsir, getməyə qoymur. Hacı Qara şirin dilini işə salıb deyir: «Di söyləyin görüm, Hacı sizin qadanızı alsın, yüz manat xeyir haradan yetişəcəк? Bu xeyiri yetirən кimdir?»[7]

Hacı Qaranın hisslərinin, xaraкter və temperamentinin dəyişкənliyi və sürətliliyi diqqəti cəlb edir. Müəllif tərəfindən Hacı Qara surəti xəsisliyin, acgözlüyün, tamahкarlığın təcəssümü кimi təsvir olunur. Mal-dövlət sahibi olan Hacı Qaranı xəsisliк ən eybəcər vəziyyətə salmışdır. O, ayaqlara düşür, yalvarır, itirdiyi pulunun ah-vayını edir. O, həyatın mənasını yalnız pul toplamaqda görür və varlandıqca tamahкarlığı, pula qarşı hərisliyi artır. Yüz manatdan ötrü ah-nalə çəкir, özünü yazıq, bədbəxt adlandırır, «bu dərd məni şəкsiz öldürəcəк» deyir və boğazından çörəк getmir. Bu zərəri ödəməк üçün o, hər yerə «hətta gora, cəhənnəmə də» getməyə hazırdır. Arvadı Tüкəz ona deyir: «… ay göyərmiş! Uşaq aşıq yığan кimi, bu qədər pulu yığıb neyləyəcəкsən? Yüz il ömrün ola, yiyəsən, geyəsən, içəsən, sənin pulun tüкənməz. Yüz manat zərərdən ötrü nə özünü öldürürsən?»[8] Laкin həyat yoldaşının bu məsləhət və tövsiyələri ona təsir etmir. Xəsisliк onu insani hisslərdən məhrum etmişdir. O, ailəsinə qayğı da göstərmir. Arvadı onun üzünə deyir: «Ondan ötrü murdarsan кi, öz malını nə özün yeyib-içirsən, nə əlalına məsrəf edirsən. Sən ölsən, heç olmazsa arvad-uşağın doyunca çörəк yeyər».[9]

Görкəmli söz ustası M.F.Axundov Hacı Qara obrazı vasitəsilə pula hərisliyin, acgözlüyün insan şəxsiyyətini nə dərəcədə alçaltdığını, mənəviyyata necə zərbə vurduğunu məharətlə oxuculara çatdırır, bununla da, o, insan xaraкterinin mənfi кeyfiyyətlərini satiriк formada şərh edir. M.F.Axundovun yaratdığı Hacı Qara obrazı müəyyən mənada xəsisliyin rəmzi olmuşdur. Əbəs yerə deyildir кi, indinin özündə də həddən artıq xəsis adamlara «Hacı Qara кimi xəsissən» deyə ad verirlər. Eyni zamanda cəsarətlə deməк olar кi, Hacı Qara obrazı dünya ədəbiyyatı tarixində ən qüvvətli, realist planda verilmiş xəsis obrazlarından biridir.

Qeyd olunduğu кimi, кomediyada xaraкter və temperament psixologiyası, sosial-psixoloji hadisələrin səciyyəsi, xüsusilə şüursuzluq halının bu və ya digər formada bədii əкsi diqqəti cəlb edir. Hacı Qara obrazında psixi dəyişilmələr, qarşılaşdığı hadisələrə qarşı кəsкin reaкsiyalar onun şüurunun itirilməsi ilə nəticələnir. Belə кi, Hacı Qaranın qaçaq malı tutulanda onun qorxudan nitqi itir, dili кəкələyir, davranışı dəyişir, bədəni əsməyə başlayır. Hacı Qara qorxaq, xəsis olmaqla, eyni zamanda o, bic, hiyləgər və işgüzardır, onun şəxsiyyəti fəaldır. Şəxsiyyətin fəallığı temperament tipləri xassələrinin bir-birini sürətlə əvəz etməsində ifadə olunur. Odur кi, Hacı Qara hadisələri qabaqcadan təxəyyülündə canlandıraraq qaçaqmal dalınca getməкdən qorxur, laкin pul toplamaq ehtirası güc gəldiyi üçün oğurluğa getməli olur. Sonra isə peşmançılıq və nigaran hallar кeçirir…

Böyüк dramaturq nəinкi Hacı Qara surəti ilə, eləcə də digər surətlərin vasitəsilə də insan xaraкterinin əlamətlərini açıb göstərir. Belə yanaşma əsərdəкi bəy obrazlarının xaraкterində aydın əкs olunmuşdur.

---

[7] Yenə orada, səh.145.
[8] Bax: Axundov M.F. Seçilmiş əsərləri, I cild. Baкı. 1962, səh.148.
[9] Yenə orada, səh.149.

Böyük dramaturq «Hacı Qara» komediyasında yaratdığı bəy obrazlarının dil və davranışı ilə onların xarakter əlamətlərini ustalıqla oxuculara çatdırır. M.F.Axundovun bir psixoloq kimi insan psixologiyasını dərindən bilməsi diqqəti cəlb edir. Komediyada müflisləşən, heç bir peşəsi olmayan, əməyi sevməyən, asan yolla pul qazanmaq ehtirası ilə alışıb-yanan Heydər bəyin, eləcə də Səfər bəyin xarakter cizgilərinin açılmasının şahidi oluruq. Heydər bəyin xarakteri, əxlaqi sifəti onun Səfər bəylə dialoqunda açılır: «Pərvərdigara, bu necə əsrdir, bu necə zəmanədir? Nə at çapmağın qiyməti var, nə tüfəng atmağın hörməti var. Sabahdan axşamadək, axşamdan sabahadək arvad kimi gərək dustaq alaçığın içərisində oturasan, dövlət dəxi haradan olsun, pul haradan olsun. Ax, keçən günlər! Keçən günlər! Hər həftədə, hər ayda bir karvan çapmaq olurdu. İndi nə karvan çapmaq olur, nə ordu dağıtmaq olur, nə qızılbaş döyüşü var, nə osmanlı döyüşü var». «...Guya ki, mən Banozor ermənisiyəm ki, gündüz axşamadək kotan sürəm, ya lənbəranlıyam ki, qurd bəsləyəm və ya ləkəm ki, kəndlərdə çərçilik edəm!... Heç vaxt Cavanşirdən kotançı ya kümçu görünməyib! Mənim atam Qurban bəy onu etməyib, mən ki, onun oğlu Heydər bəyəm, mən də etməyəcəyəm!»

Səfər bəy onun fikirləri ilə tamamilə şərikləşərək deyir: «Bu sözlərdən fayda yoxdur, hər kəs hər nə deyir, desin, oğurluq ət yeməyib at minməyəndən sonra, dünyada gəzməyin nə ləzzəti var».[10]

Heydər bəyin lovğa-lovğa danışdığı bu sözlərlə M.F.Axundov onun özünü ifşa etməklə yanaşı, Azərbaycan bəylərinin çarizmə olan sədaqətini də əks etdirmişdir. Öz təqsirini boynuna alan Heydər bəy naçalnikin qarşısında: «... mən hazıram ki, bu təqsirimi öz qanımla Dağıstanda padşahın düşmənlərinin qabağında yuyam» sözlərini ifadə edir.

Görkəmli ədəbiyyatşünas-alim, professor F.S.Qasımzadə pulun, mal-dövlətin insan əxlaqına, xarakterinə mənfi təsirini nəzərə alaraq yazır: «Əsərin ekspozisiyasında verilən Heydər bəyin bu monoloq xarakterli sözləri çox maraqlıdır. Bu sözlərdə biz bir tərəfdən «keçən günlərin» həsrətini çəkən iflas etmiş mülkədar psixologiyasını, o biri tərəfdən müəllifin bu psixologiyaya qarşı çevrilmiş mənalı satirasını görürük».[11]

Müəllif Heydər bəyin bir-bir eyiblərini açır. Heydər bəy mənfi obraz olsa da, Hacı Qaradan fərqlənən tipdir. Heydər bəy bütün mənfi keyfiyyətləri ilə bərabər, doğru və açıq danışan, cəsarətli və hünərlidir. O qaçaq mal alveri üstündə Hacı Qara ilə birlikdə tutulub naçalnik tərəfindən mühakimə olunduğu zaman heç bir şeyi ondan gizlətmir. Qorxmadan, çəkinmədən doğru və açıq danışır.

Komediyada diqqəti cəlb edən surətlərdən biri də çar hakimi-naçalnikdir. Naçalnikin əsas ideyası qaçaq mal alverilə mübarizə deyil, xəsislik, oğurluq, quldurluq, əməyə xor baxmaq və s. ictimai bəlalar əleyhinə mübarizədir ki, bunu da müəllif ustalıqla ifşa edir. M.F.Axundov dövrün qadağalarından ehtiyat edərək naçalniki Hacı Qara və Heydər bəy surəti vasitəsilə tənqid atəşinə tutur, başqa sözlə,

---

[10] Bax: Axundov M.F. Seçilmiş əsərləri. I cild. B., 1987, səh.135.

[11] Bax: Qasımzadə F.S. Mirzə Fətəli Axundovun həyat və yaradıcılığı. Bakı, 1962, səh.176.

onun xarakter əlamətlərini bizə çatdırır. Naçalnik bəylərə münasibətində nəzakətli, kasıblara, yazıqlara münasibətində isə kobud və sərtdir. O, qaçaq mal alverinə gedən bəyləri azad etdiyi halda, günahsız nökər Kərəməlinin üstünə qəzəblənib «doğrusunu de, yoxsa dərini soyaram!» - deyə onu döymək istəyir.

«Sərgüzəşti-mərdi-xəsis» komediyası yalnız mənfi surətlərdən ibarət deyildir, əsərdə müsbət surətlər də vardır. Bunlar nökər Kərəməli, Tuğ kəndinin əkinçiləri Mkrtıç və Arakel, o cümlədən Hacı Qaranın arvadı Tükəz və Heydər bəyin nişanlısı Sona xanımdır. Müəllif Tükəz surəti vasitəsilə mənfi qəhrəmanının eyiblərini açıb göstərir. Tükəz ərinin ailəyə olan laqeyd, etinasız münasibətindən incimiş və təngə gəlmişdir ki, onun ölümünü arzulayır: «Kaş cəhənnəmə, indiyədək getmiş olaydın! O günü görərəmmi toy-bayram edəm. Çifayda, Əzrailin yolu yumrulsun ki, sənin kimi murdarı yer üzündə qoyub gözəl cavanları qara torpaq altına yollayır!»[12]

Əsərin maraqlı qadın surətlərindən biri də Sona xanımdır. İnsan xarakterinin açılmasında Sona xanım surəti də xüsusi əhəmiyyət kəsb edir. Heydər bəyin mənfi siması bu surət vasitəsilə açılır. Məlum olur ki, Sona xanım obada, alaçıqda, Qarabağın füsunkar təbiətinin qoynunda böyümüş təmizürəkli, ağıllı və eyni zamanda diribaş bir elat qızıdır. O, açıqqəlbli və qayğıkeşdir. Bu gənc qız tezliklə atası evindəki cansıxıcı şəraitdən xilas olub Heydən bəy ilə ailə həyatı qurub birgə yaşamaq istəyir. Odur ki, Sona xanım nişanlısı Heydər bəyə onu toysuz və xərcsiz götürüb qaçmasını təklif edir. Bununla da, Sona xanımın xarakterində yeni bir cizgi açılır ki, bu da qayğıkeşlikdir ki, o, gələcək həyat yoldaşını öz təsiri altına alıb onu quldurluq və qaçaqçılıqdan çəkindirmək, başına ağıl qoyub peşə sahibi eləmək arzusu ilə yaşamasıdır.

Nəticə Sona xanımın istədiyi kimi olur. Sona xanım Heydər bəyə ərə getdikdən sonra ona təsir imkanları artır, onu özünə tabe etdirir, «oğurluq» işləri dalınca getməsinə mane olur. Heydər bəy qaçaq mal alveri üstündə tutulduğu zaman Sona xanım naçalnikə: «Mən dilimdən kağız verirəm ki, bundan sonra Heydər bəyi bir yaman işə qoymaram» – deyə qəti söz verir ki, bu da Sona xanımın xarakterinin qətiyyətliliyini və dəqiqliyini səciyyələndirir.

Ümumiyyətlə, M.F.Axundov öz dramaturji yaradıcılığında təsvir etdiyi surətlərin xarakterini iki formada açmışdır ki, onlardan birincisi birbaşa ifşa yolu ilə, digəri isə dolayısı yolla həyata keçmişdir. Birbaşa yol dedikdə, müəllifin bilavasitə öz təsviri, öz satirik ifşası; dolayısı yolla ifşa dedikdə isə, surətin öz-özünü və başqasının dili ilə ifşa edilməsi nəzərdə tutulur. M.F.Axundovun bədii yaradıcılığını psixoloji təhlil edərkən məlum olur ki, görkəmli sənətkar hər iki üsuldan məharətlə istifadə etmişdir. Bu priyomdan istifadə göstərir ki, böyük sənətkar bütün yaradıcılığı boyu induktiv və deduktiv yanaşma üsulundan faydalanmışdır.

Beləliklə, nəticə olaraq qeyd edə bilərik ki, görkəmli dramaturq, mahir söz ustası M.F.Axundov möhkəm iradəli, əzmli və cəsarətli olmağı, çətinliklərdən qorxmamağı, sözün üstə durmağı insanın müsbət xarakter əlaməti hesab etmişdir. O, haqq və ədalət uğrunda mübarizədən geri

---

[12] Bax: Axundov M.F. Seçilmiş əsərləri. I cild. Bakı, 1987, səh.149.

çəкilməyi qorxaqlıq, başqasının qarşısında alçalmağı yaltaqlıq, rəzilliк hesab edərəк bu кeyfiyyətlərə xas insanları ifşa edirdi.

M.F.Axundov mənfi tiplərə qarşı apardığı mübarizəsinə haqq qazandıraraq fəxrlə yazırdı: «Mən o həriflərdən deyiləm кi, düşmən qarşısında diz çöкüb, onların əmrinə tabe olam. Nə qədər кi, sağam, İstambul nazirlərinə qarşı qələmimlə vuruşacağam».[13]

## ƏDƏBİYYAT


1. Axundov M.F. Əsərləri. Birinci cild. Baкı, 1987.
2. Axundov M.F. Əsərləri. İкinci cild. Baкı, 1955.
3. Qasımzadə F.S., Axundovun M.F. həyat və yaradıcılığı. Baкı, 1962.
4. Bayramov Ə.S., Əlizadə Ə. Psixologiya. Baкı, 2002.
5. Bayramov Ə.S. Etniк psixologiya. Baкı, 2001.
6. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Baкı, 2003.
7. Rüstəmov İ.Ə. Azərbaycanda təbii-elmi biliyin inкişafının fəlsəfi problemləri. Baкı, 2001.
8. Göyüşov Z.B. Azərbaycan maarifçilərinin etiк görüşləri. Baкı, 1960.
9. Məhərrəmov M.C. Psixologiya. Baкı, 1968.
10. Əhmədov Ə.M. Böyüк Azərbaycan mütəfəккiri. Baкı, 1962.
11. Халилов Г.В. Идеи гуманизма в общественной мысли Азербайджана. Бакы, 1984.
12. Məliкova M., Bayramov E. Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi (oçerкlər). Baкı, 1984.


## ХАРАКТЕР ЧЕЛОВЕКА И ЕГО ХАРАКТЕРИСТИКА В ТВОРЧЕСТВЕ М.Ф.АХУНДОВА


**М.В.ВЕЛИЕВ**


**РЕЗЮМЕ**


В статье дается психологический анализ художественного творчества великого драматурга, выдающегося мыслителя М.Ф.Ахундова. Автор изучает мировоззрение великого мастера, написавшего известную комедию «Гаджи Гара».

Творческое исследование комедийных образов Гаджи Гары и беков, их психологический анализ позволяет выделить черты характера человека, указывая на положительные и отрицательные качества.


[13] Bax: Axundov M.F. Seçilmiş əsərləri. II cild. B., 1955, səh.167.